# ABŞ–Azərbaycan münasibətləri ən yüksək səviyyədə inkişaf edir




***Amerika Birləşmiş Ştatları (ABŞ) ilə Azərbaycan arasında münasibətlər uğurla inkişaf edir. Bu, dünyada hökm sürən münaqişə, gərginlik və böhran şəraitində ölkəmizin beynəlxalq səviyyədə mövqelərini daha da gücləndirir, ikitərəfli və çoxtərəfli formatlarda əməkdaşlığın inkişafını sürətləndirir, ən əsası isə Ermənistan–Azərbaycan əlaqələrinin normallaşdırılması baxımından mühüm önəm daşıyır.***

ABŞ-ın Dövlət katibi Antoni Blinkenin iyulun 25-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevlə telefon söhbətində bütün bunlar barədə ətraflı bəhs edilib.

Antoni Blinken ABŞ-ın Ermənistan ilə Azərbaycan arasında münasibətlərin normallaşdırılmasını dəstəklədiyini qeyd edərək, Tbilisidə iki ölkənin xarici işlər nazirlərinin görüşünü və birbaşa dialoqunu müsbət qiymətləndirdiyini bildirib. Prezident İlham Əliyev isə sözügedən görüşün reallaşdırılmasını iki ölkə arasında sülh müqaviləsi üzrə danışıqların başlanması istiqamətində ilk addım kimi yüksək qiymətləndirib. Dövlətimizin başçısı Azərbaycanın artıq sülh müqaviləsinin hazırlanması üzrə öz komissiyasının tərkibini formalaşdırdığını və Ermənistan tərəfindən də eyni addımın atılmasını gözlədiyini bildirib.

Yeri gəlmişkən, Ermənistan–Azərbaycan əlaqələrinin normallaşması istiqamətində ölkəmizin səyi danılmazdır. Əsasən respublikamızın təşəbbüsü ilə Vətən müharibəsindən ötən müddətdə bu istiqamətdə müsbət addımlar atılıb. İki ölkə arasında dövlət sərhədlərinin delimitasiyası üzrə işçi qrupun ilk iclası keçirilib. Gələn ay işçi qrupun ikinci görüşünün reallaşdırılması nəzərdə tutulub. Sülh müqaviləsinin hazırlanması üçün Azərbaycanın irəli sürdüyü beş baza prinsipi Ermənistan tərəfindən qəbul edilib. Azərbaycan və Ermənistan xarici işlər nazirləri tərəfindən ilk dəfə ikitərəfli formatda görüş keçirilib. Bu görüş iyulun 16-da Tbilisidə reallaşıb. Lakin təəssüflə qeyd edək ki, Azərbaycanın səylərinə, atdığı müsbət addımlara baxmayaraq, hələlik real nəticələr əldə edilməyib. Belə ki, Ermənistan 2020-ci il noyabrın 10-da imzalanan məlum üçtərəfli Bəyanata əsasən üzərinə götürdüyü öhdəlikləri vaxtı uzadaraq yerinə yetirməkdən boyun qaçırır. Məsələn, işğalçı ölkə öz silahlı qüvvələrini Rusiya sülhməramlılarının müvəqqəti yerləşdiyi Azərbaycan ərazilərindən çıxarmaq və Naxçıvan Muxtar Respublikası ilə Azərbaycanın əsas hissəsini birləşdirəcək Zəngəzur dəhlizinin qurulması ilə bağlı adı çəkilən Bəyanatda qeyd olunan öhdəlikləri yerinə yetirməkdən yayınır.

Bütün bu mənfi hallarla kifayətlənməyən Ermənistan status məsələsini də yenidən gündəmə gətirmək, ATƏT-in Minsk qrupunu dirçəltmək üçün uğursuz cəhdlər edir. Azərbaycan isə bu cür qəbulolunmaz mənfi təzahürləri nəzərə alaraq, bir tərəfdən diplomatik cəbhədə səmərəli və intensiv fəaliyyət aparır, digər tərəfdən isə ordu quruculuğu və hərbi sahədə islahatlar həyata keçirir.

*(ardı 4-cü səhifədə)*

(əvvəli 1-ci səhifədə)

# ABŞ–Azərbaycan münasibətləri ən yüksək səviyyədə inkişaf edir



Xatırladaq ki, Prezident İlham Əliyev bu ilin altı ayının yekunlarına həsr olunan müşavirədə bir sıra vacib məsələlərə münasibət bildirərkən deyib: "Cari ilin altı ayında Azərbaycan-Ermənistan əlaqələrinin normallaşdırılması istiqamətində müəyyən addımlar atılsa da, əfsuslar olsun ki, hələlik real nəticələr yoxdur. Baxmayaraq ki, Vətən müharibəsindən 1 il 8 ay ötüb, ancaq Ermənistan hələ də məcburən üzərinə götürdüyü öhdəliklərini yerinə yetirmir".

Dövlətimizin başçısı qeyd edib ki, delimitasiya üzrə işçi qrupların birinci görüşü keçirilməsi müsbət addım kimi qiymətləndirilə bilərsə, bu da ölkəmizin təşəbbüsü ilə baş vermiş hadisədir. Çünki Ermənistan tərəfi buna o qədər də meylli deyil. Prezident İlham Əliyev avqustda ikinci görüşün keçirilməsinin nəzərdə tutulduğunu qeyd etməklə yanaşı, bildirib ki, tezliklə nəticə əldə olunacağını gözləmir, çünki delimitasiya uzun bir prosesdir.

Ölkə rəhbərinin vurğuladığı kimi, təşəbbüsü ilə sülh müqaviləsinin əsasını təşkil edəcək beş əsas baza prinsipi Ermənistan tərəfindən qəbul edilib. İşğalçı ölkə rəhbərliyi də rəsmən bu beş prinsipi qəbul edib, amma sözdə... Əməldə isə fərqli mənzərə nəzərə çarpır. Məsələn, dövlətimizin başçısı 2022-ci ilin altı ayının yekunlarına həsr olunan müşavirədə Ermənistanın israrla bildirdiyi status məsələsinə toxunaraq, deyib: "Son vaxtlar Ermənistan rəhbəri yenə də hansısa status haqqında danışmağa başlayıb. Halbuki müharibəyə son qoyulanda, Ermənistan kapitulyasiya aktına məcburən imza atanda bizim–Azərbaycan, Rusiya, Ermənistanın rəhbərləri arasında şifahi razılaşma olmuşdu ki, status məsələsinə toxunulmur. Ermənistan müəyyən müddət buna əməl edirdi. Ancaq son zamanlar bu, adi hala çevrilib. Gah onların baş naziri, gah xarici işlər naziri Qarabağın statusundan danışırlar. Status hara gedib və statusa nə olub, mən müharibədən sonra demişəm, təkrarlamaq istəmirəm. Əgər Ermənistanda bunu kimsə unudubsa, təkrarlaya bilərəm. Amma hesab edirəm ki, hələlik buna ehtiyac yoxdur. Status haqqında danışmaq Ermənistan üçün hesab edirəm ki, çox təhlükəli məsələdir. Çünki biz də status haqqında da danışa bilərik, Zəngəzur üçün status tələb edə bilərik. O Zəngəzur ki, 1920-ci ilin noyabrında bizdən qoparıldı. Biz danışmırıq, amma danışa bilərik, baxaq görək nəticəsi nə olacaq. Buna oxşar mənfi məqamlar çoxdur...".

Dövlətimizin başçısı telefon söhbətində humanitar məsələlərə də toxunaraq, birinci Ermənistan-Azərbaycan müharibəsindən 3890 nəfərdən artıq azərbaycanlının itkin düşmüş şəxs hesab olunduğunu qeyd edib və Ermənistan tərəfinə dəfələrlə müraciət edilməsinə baxmayaraq, kütləvi məzarlıqların yerləri barədə işğalçı tərəfindən məlumat verilməməsinə diqqəti çəkib.

Yeri gəlmişkən, xatırladaq ki, Azərbaycan əraziləri işğaldan azad ediləndən sonra qısa müddət ərzində həmin yerlərdə kütləvi məzarlıqlar aşkarlanıb. Prezident İlham Əliyev çıxışlarının birində bu barədə deyib: "Ermənistan tərəfi Birinci Qarabağ müharibəsi dövründə 4 min girov düşmüş vətəndaşımız haqqında məlumat verməlidir. Onlar əgər kütləvi şəkildə öldürülübsə, ermənilər məzarlıqların yerini deməlidir. Bu məsələlər gündəmdədir, ancaq qarşı tərəf konkret yer demir ki, həmin məzarlıqlar haradadır. Müəyyən yerlər artıq məlumdur ki, orada kütləvi məzarlıqlar var. Məsələn, Xocalı, Kəlbəcər istiqamətdə məzarlıqlar aşkarlanıb. Yeni aşkar edilmiş məzarlıqlar da ola bilər, ancaq bu barədə cəmiyyətə və bizə hər hansı məlumat verilməyib".

Bəli, söhbət 4 min nəfərin taleyindən gedir və Ermənistan bununla bağlı Azərbaycana hesabat verməlidir. Ermənistan hərbçilərində, eləcə də Sarkisyan və Koçaryanın qatı cinayət əməllərinin iştirakçısı olan insanlarda o kütləvi məzarlıqlar haqqında hər cür məlumatlar var. Bu baxımdan, beynəlxalq qurumlar tərəfindən də bu cinayət əməlinin hesabatı Ermənistandan soruşulmalıdır.

Yeri gəlmişkən, ABŞ Dövlət Departamentinin dünya ölkələrində insan hüquqlarının vəziyyətinə dair illik hesabatında Qarabağ və Şərqi Zəngəzurda erməni faşizminin törətdiyi vandal əməllərlə bağlı müəyyən məqamlar yer alıb. Füzuli, Ağdam, Zəngilan, Kəlbəcər, Cəbrayıl rayonlarında işğalçı ölkənin separatçıları tərəfindən onlarla azərbaycanlı qəbiristanlığının əl və texnika ilə dağıdılması, təhqirə məruz qalmas, erməni məzarlıqlarının isə toxunulmaz saxlanıldığı diqqətə çatdırılıb. Eyni zamanda, hesabatda bu faktların xarici jurnalistlər tərəfindən çəkilən minlərlə foto ilə təsdiq olunduğu vurğulanıb.

Bütün bunlarla bərabər, sənəddə 2020-ci ildə etnik erməni qüvvələrinin bəzi azərbaycanlı əsirləri qanunsuz şəkildə qətlə yetirdiklərinə və işgəncəyə, ləyaqəti alçaldan rəftara məruz qoyduqlarına dair məlumatlar da əksini tapıb. Həmçinin Azərbaycan Baş Prokurorluğu tərəfindən Kəlbəcər rayonunun Başlıbel kəndində 1993-cü ildə erməni silahlı qüvvələri tərəfindən öldürülən azərbaycanlılara aid məzarların axtarışına başlanıldığı, 2020-ci ildə atəşkəsin əldə olunmasından sonra Ermənistanın daha əvvəl nəzarət etdiyi Azərbaycan ərazilərində azərbaycanlı hərbçilərin və mülki şəxslərin minaya düşərək həlak olmaları, yaralanmaları da bildirilib.

Ermənistanın müharibə cinayətlərinin əhatə dairəsi heç də hesabatda göstərilənlərlə məhdudlaşmır. Bu gün ermənilərin terror, vandalizm əməlləri işğaldan azad edilən ərazilərimizdə açıq-aydın görünür. Başdan-başa xarabalığa çevrilən şəhər və kəndlərimizin acı mənzərəsi ürək ağrıdır. Maddi-mədəniyyət abidələrimizin mənimsənilməsi, tarixi-mədəni təyinatına uyğun gəlməyən şəkildə istifadə olunması, məscidlərdə ev heyvanlarının saxlanılması, inanc yerlərinin əksər hallarda yerlə-yeksan edilməsi, yaşıllıqların məhv olunması işğalçının qəddarlığının miqyasından xəbər verir.

Düşməndən təmizlənən ərazilərdəki dağıntılar Birinci Qarabağ müharibəsindən sonrakı dönəmdə törədilib. Əvvəlcə evlərin və sosial obyektlərin tikinti materialları, dam örtükləri və pəncərələri oğurlanıb, daha sonra isə Azərbaycanın mədəni irsi dağıdılıb, təbii sərvətləri talan olunub. Bütün bunları nəzərdə tutan dövlətimizin başçısı çıxışlarının birində deyib: "Bunu hansısa başqa planetdən gələn yadplanetli yox, erməni edib. Özü də Birinci Qarabağ müharibəsi dövründə yox, müharibədən sonra, məqsədyönlü şəkildə, barbar kimi, vəhşi kimi, vandal kimi, bir-bir evlərin kərpiclərini, daşlarını söküb aparıb özləri üçün daxmalar tikiblər".

Ermənilərin yaşayış məntəqələrimizə, maddi-mədəni abidələrimizə düşmən münasibəti, insanlıqla bir araya sığmayan vəhşi əməlləri Qarabağ və Şərqi Zəngəzurun demək olar ki, hər qarışında nəzərə çarpır.

Antoni Blinken, həmçinin ABŞ-ın Ermənistan ilə Azərbaycan arasında nəqliyyat bağlantılarının və kommunikasiyaların açılmasına və bu sahədə texniki dəstəyin göstərilməsinə hazır olduğunu ifadə edib. Söhbət zamanı bu yaxınlarda Azərbaycan ilə Avropa İttifaqı Komissiyası arasında enerji sahəsində imzalanmış anlaşma memorandumunun əhəmiyyəti də məmnuniyyətlə qeyd olunub.

Xatırladaq ki, son illər ərzində Azərbaycan ilə Avropa İttifaqı arasında əlaqələr müxtəlif aspektlərdə, məsələn, enerji, nəqliyyat, ətraf mühit, iqtisadi, ticarət, sosial sahələr, habelə kommunikasiya məsələləri istiqamətlərində dinamik inkişaf edib. Xüsusilə Azərbaycan Avropanın enerji təhlükəsizliyində oynadığı mühüm rol ən yüksək səviyyəyə çatıb. Bütün bunlarla Azərbaycan özünün ən etibarlı tərəfdaş olduğunu sübuta yetirib. Bu, iyulun 18-də Azərbaycan Respublikasının Prezidenti və Avropa Komissiyasının Prezidenti tərəfindən imzalanan Anlaşma Memorandumunda da öz ifadəsini tapıb.

Yeri gəlmişkən, Avropa Komissiyasının Prezidenti xanım Ursula Fon der Lyayen Bakı səfəri zamanı mətbuata bəyanatında Avropa İttifaqı tərəfinin respublikamızın təbii qazının təchizat təhlükəsizliyinə və qiymətlərin sabitliyinə töhfə verdiyini bildirib. Eyni zamanda, adı çəkilən bəyanatdan əvvəl Azərbaycan Prezidenti ilə keçirilən görüşdə respublikamızla bu qurum arasında əməkdaşlığın çoxtərəfli platformalarda inkişafı perspektivləri və bu kontekstdə, Şərq Tərəfdaşlığı çərçivəsində əməkdaşlıq və Şərq Tərəfdaşlığının təkmilləşdirilməsi yolları müzakirə edilib.

Avropa İttifaqı öz fəaliyyətində Azərbaycanla bağlı regional məsələləri də daim diqqətdə saxlayıb. Bu xüsusda, son dövrlər Azərbaycan ilə Ermənistan arasında normallaşma prosesi ətrafında geniş müzakirə aparılıb. Avropa İttifaqı sülh sazişinin imzalanması, bununla əlaqədar Azərbaycanın sistemli və strukturlu yanaşmasının tərəfdarı olmasını yüksək dəyərləndirib. Qurum sərhədlərin delimitasiyası, kommunikasiyaların açılması, eyni zamanda, Azərbaycan ilə Ermənistan arasında etimad quruculuğu tədbirlərinin həyata keçirilməsi sahəsində Azərbaycanın ədalətli mövqeyini hər zaman dəstəkləyib.

Göründüyü kimi, Azərbaycanla Avropa İttifaqı arasında yüksək səviyyəli münasibətlər və əməkdaşlıq qurulub. Bu, Prezident İlham Əliyevin Avropa İttifaqı Şurasının prezidenti Şarl Mişellə münasibətləri, qarşılıqlı səfərlər və yüksək səviyyəli dialoqda, sıx əməkdaşlığın real nəticələrində özünü aydın göstərir.

Prezident İlham Əliyev ABŞ-ın Dövlət katibi Antoni Blinkenlə telefon söhbətində Azərbaycanın işğaldan azad olunmuş ərazilərində Ermənistan tərəfindən kütləvi şəkildə minaların basdırıldığı və müharibənin başa çatmasından indiyədək 240 nəfərdən artıq vətəndaşımızın mina partlayışlarında həlak olduğu və ya sağlamlığını itirdiyi də diqqətə çatdırıb.

***Vaqif BAYRAMOV,***
***"Xalq qəzeti"***